MahadSunnah

هيثم سرحان

يا من فاته
الحج لا يفتك هذا
Ey həc ziyarətini qaçıran, bunu qaçırma!

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Kəbə evini həc və ümrə etməyə can atanların bir çoxunun səfər və başqa xərclərə imkanı olmadığı halda, Allah ﷻ Öz geniş rəhməti ilə bu və digər kəslərə bir neçə asan əməllər buyurmuşdur.

Bu əməllər həc və ümrənin savabına bərabərdir. Bunlar:

- Peyğəmbər ﷺ buyurub:

"Kim sübh namazını camaatla qılar, sonra gün çıxana kimi oturub Allahı zikr edər, sonra durub iki rükət namaz qılarsa, onun üçün (tam şəkildə, tam şəkildə və tam şəkildə) həc və ümrə savabı yazılar".[1]

- Peyğəmbər ﷺ buyurub:

"Kim evində dəstəmaz alıb, sonra Quba məscidinə gedib orada namaz qılarsa, onun üçün ümrə savabı olar".[2]

- Peyğəmbər ﷺ buyurub:

"Ramazanda ümrə etmək mənimlə bərabər həc etməyə bərabərdir".[3]

[1] Tirmizi /586
[2] İbn Məcəh /1412
[3] Buxari/1782 və Muslim /1256

- Peyğəmbər ﷺ buyurub:

"Kim vacib bir namaz üçün evindən dəstəmazlı halda çıxarsa, onun savabı ehramlı həc edən kimidir".[4]

- Peyğəmbər ﷺ buyurub:

"Kim yalnız duha namazı qılmaq niyyəti ilə evindən çıxarsa, onun üçün ümrə savabı olar".[5]

- Peyğəmbər ﷺ buyurub:

"Kim həc edənə tədarük hazırlayar və ya onun ailəsinə baxıb yardım edərsə, həc edənin savabından əksilmədən onun savabını qazanar".[6]

Həcc və ümrəyə bərabər olan və hər kəsin bacardığı əməllərdən biri də:

- Hər namazdan sonra otuz üç dəfə təsbih (subhanallah), təhmid (əlhəmdulilləh) və təkbir (Allahu əkbər) deməkdir.

Abu Hureyra (Allah ondan razı olsun) bir hədisində buyurur:

Kasıblar Peyğəmbərin ﷺ yanına gəlib dedilər:

---

[4] Abu Davud /558
[5] Abu Davud /558
[6] İbn Xuzeymə/2064 (Şeyx Albani isnadı səhihləşdirib)

-Varlılar uca dərəcələrə və tükənməz nemətlərə malları ilə yetişdilər. Onlar bizim kimi namaz qılır, bizim kimi oruc tutur və onların çoxlu malı olduğuna görə həc və ümrə edir, cihad edir və sədəqə verirlər.

-Peyğəmbər ﷺ dedi:

“Sizə elə bir şey öyrədimmi ki, onu etsəniz sizi ötüb keçənlərə çatasınız, sizdən sonra yaşayanlardan heç kəs sizə çata bilməsin və sizin etdiyinizi edənlər istisna olmaqla, aranızda olan kimsələrin ən xeyirlisi siz olasınız?
Hər namazdan sonra otuz üç dəfə təsbih (subhanallah), təhmid (əlhəmdulilləh) və təkbir (Allahu əkbər) deyin!”[7]

Allah ﷻ buyurur:

قال تعالى: ﴿ذَٰلِكَ فَضۡلُ ٱللَّهِ يُؤۡتِيهِ مَن يَشَآءُۚ وَٱللَّهُ ذُو ٱلۡفَضۡلِ ٱلۡعَظِيمِ ۝٤﴾ [الجُمُعَة : ٤]

“Bu, Allahın lütfüdür, onu istədiyinə verir. Allah böyük lütf sahibidir”.[8]

[7] Buxari /843
[8] Cumuə surəsi, 4-cü ayə